# Türk dövlətləri liderliyini ən yüksək səviyyədə nümayiş etdirir

**Beynəlxalq münasibətlərin çoxqütblü böhranlarla üzləşdiyi müasir dövrdə Türk dövlətləri öz həmrəyliyini və təsir gücünü artırmaqla qlobal siyasətdə yeni model təqdim edir. Qərb və Şərq arasında güc balansının dəyişdiyi, beynəlxalq təşkilatların effektivliyinin azaldığı bir vaxtda türkdilli dövlətlərin ortaq siyasi və iqtisadi platformalar yaratması strateji əhəmiyyət kəsb edir.**



Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Xarici Əlaqələr Komissiyalarının toplantılarının keçirilməsi ideyasının müəllifi məhz Azərbaycan Prezidenti İlham Əliyevdir. Bu təşəbbüs parlament diplomatiyası vasitəsilə regional əməkdaşlığın yeni üfüqlərini açmaq məqsədi daşıyır. Fevralın 18-19-da İstanbulda baş tutan TÜRKPA Xarici Əlaqələr Komissiyalarının iclası türk dövlətlərinin siyasi və iqtisadi inteqrasiyasına xidmət edən mühüm addımlardan oldu. Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyəti nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə türk dövlətlərinin qanunverici orqanları arasında əməkdaşlığın daha da gücləndirilməsi müzakirələrin əsas mövzularından biri oldu.

**(davamı 10-cu səhifədə)**

# Türk dövlətləri liderliyini ən yüksək səviyyədə nümayiş etdirir

(əvvəli 1-ci səhifədə)

Toplantı türk dünyasının müasir çağırışlara birgə cavab vermək üçün güclü dialoq platforması rolunu oynadı. Qlobal təhlükəsizlik məsələləri, iqtisadi inteqrasiya və parlament diplomatiyasının rolu kimi strateji mövzular ətrafında aparılan müzakirələr, Türk dövlətlərinin beynəlxalq proseslərdə aktiv iştirakını və birgə siyasi-iqtisadi təşəbbüslərlə çıxış etmək zərurətini ortaya qoy-




du. Dünyada geosiyasi dinamikanın sürətlə dəyişdiyi bir dövrdə Türk dövlətləri birliyinin möhkəmləndirilməsi və regional həmrəyliyin dərinləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, TÜRKPA-nın İstanbul toplantısı Türk dünyasının daha sıx inteqrasiya olunmasına, yeni iqtisadi və siyasi mexanizmlərin formalaşdırılmasına xidmət edən mühüm mərhələ kimi qiymətləndirilir.

Tədbir çərçivəsində qəbul edilən qərarlar göstərir ki, Türk dövlətlərinin qlobal siyasətdə mövqeyini möhkəmləndirən, xarici siyasət prioritetlərini koordinasiya edən TÜRKPA Türk dünyasının siyasi, iqtisadi və mədəni inteqrasiyasını gücləndirmək məqsədilə fəaliyyət göstərir və üzv dövlətlər arasında əlaqələri daha da dərinləşdirir.

Toplantı çərçivəsində TÜRKPA-nın fəaliyyətinin yalnız siyasi əməkdaşlıqla məhdudlaşmadığı, həm də təhlükəsizlik, nəqliyyat və enerji sahələrində ortaq strategiyaların formalaşdırılmasına, xüsusilə Zəngəzur dəhlizinin açılmasının regionda iqtisadi və siyasi sabitliyə mühüm töhfə verəcəyi vurğulandı. Bundan əlavə, Türk dövlətləri arasında iqtisadi inteqrasiyanın gücləndirilməsi üçün yeni təşəbbüslərin irəli sürülməsi, bu əməkdaşlığın ticarət, investisiya və enerji layihələri vasitəsilə inkişaf etdirilməsi məsələləri diqqət mərkəzində oldu.

Türk dövlətlərinin ümumi iqtisadi gücü 1.3 trilyon ABŞ dolları həcmində qiymətləndirilsə də, qarşılıqlı ticarət dövriyyəsi cəmi 42 milyard dollar təşkil edir. Bu isə potensialın yalnız 3 faizinin reallaşdırıldığını göstərir. Bu göstəricinin artırılması üçün Orta Dəhliz və digər strateji nəqliyyat və enerji layihələri mühüm rol oynayacaq. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Trans-Xəzər Nəqliyyat Marşrutu kimi infrastruktur layihələri regionun logistika imkanlarını genişləndirməklə yanaşı, ticarət və investisiya axınlarını da stimullaşdırır. Bu layihələr Türk dövlətlərini Çindən Avropaya uzanan əsas ticarət marşrutlarında əhəmiyyətli lidere çevirir.

Azərbaycanın bu sahədəki rolu xüsusilə diqqətəlayiqdir. Ölkə Şərq-Qərb nəqliyyat dəhlizi boyunca tranzit daşımaların həcmini 15 faiz artıraraq Mərkəzi Asiya və Avropa arasında ticarətin inkişafına töhfə verir. Azərbaycanın Türkiyəyə investisiyaları 2024-cü ildə 20 milyard dolları keçmişdir ki, bu da Türk dövlətləri arasında iqtisadi əməkdaşlığın nümunəsidir və qarşıdakı illərdə daha geniş miqyasda davam etdirilməsi planlaşdırılır.

Türk dünyasının iqtisadi inteqrasiyasını gücləndirmək üçün birgə sərmayə fondlarının yaradılması, gömrük və ticarət rejimlərinin uyğunlaşdırılması, eləcə də rəqəmsal iqtisadiyyat və innovasiyalar sahəsində əməkdaşlığın artırılması təklif olunur. Bu addımlar Türk dövlətlərinin qlobal bazarlarda rəqabət qabiliyyətini artırmaqla yanaşı, onların iqtisadi müstəqilliyini də gücləndirəcək. Türk dövlətləri həm iqtisadi, həm də təhlükəsizlik sahəsində əməkdaşlıqla ortaq müdafiə strategiyaları formalaşdırır. 2024-cü ildə Azərbaycan və Türkiyə hərbi qüvvələri 20 birgə təlimdə iştirak edib, Qırğızıstanla isə 2025-ci il üçün strateji əməkdaşlıq planı imzalanıb. Bu cür təlimlər Türk dünyasının təhlükəsizlik sahəsində koordinasiyasını artırmaqla yanaşı, regiondakı sabitliyi möhkəmləndirməyə də xidmət edir.

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər Türk dövlətlərinin hərbi potensialını nümayiş etdirdi və regional geosiyasi balansı dəyişdi. Müzakirələrdə bu qələbənin Cənubi Qafqazda sülhün təmin edilməsində əsas amillərdən biri olduğu vurğulandı. Türkiyənin sabiq vitse-prezidenti Fuat Oktay qeyd etdi ki, Azərbaycanın torpaqlarını işğaldan azad etməsi həm ölkənin, həm də bütün Türk dünyasının gücünü və həmrəyliyini sübut etdi.

Türk dövlətləri arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi də gündəmdədir. Birgə silah istehsalı, müdafiə texnologiyalarının paylaşımı və təhlükəsizlik sahəsində informasiya mübadiləsi regionda güc balansını Türk dövlətlərinin xeyrinə dəyişə bilər.

Türk dövlətlərinin sürətli inteqrasiyası iqtisadi və təhlükəsizlik sahələri ilə məhdudlaşmır. Mədəni və siyasi həmrəylik türk dünyasının qlobal arenada təsirini artırmaq üçün mühüm strateji amilə çevrilir. TÜRKPA və Türk Dövlətləri Təşkilatı (TDT) kimi qurumlar, regional və beynəlxalq məsələlərdə türkdilli ölkələrin birgə fəaliyyətini gücləndirir. Bu həmrəylik, eyni zamanda Qərbin ikili standartlarına qarşı vahid mövqe tutmaqla yeni siyasi prinsiplər formalaşdırır.

Azərbaycan Prezidenti İlham Əliyevin "Bizim ailəmiz Türk dünyasıdır" ifadəsi türk dövlətləri arasında birlik və həmrəylik fəlsəfəsinin əsas prinsiplərindən birini təşkil edir. Bu yanaşma Türk dövlətlərinin coğrafi, iqtisadi, həmçinin ortaq dəyərlərə və siyasi baxışlara əsaslanan vahid mədəni platforma yaratmasını ön plana çıxarır. Bu kontekstdə Türk Dünyası Xartiyası və "Birləşmiş dayanıqlı gələcək" qətnaməsi, türk dövlətlərinin mədəni və siyasi birliyini hüquqi baxımdan təsdiqləyən mühüm sənədlərdir. TDT çərçivəsində qəbul edilən bu sənədlər üzv dövlətlərin strateji əməkdaşlığını gücləndirir və onların beynəlxalq səviyyədə təmsil olunmalarına şərait yaradır.

Ötən ilin noyabr ayında Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) 29-cu sessiyasına ev sahibliyi Türk dünyasının beynəlxalq platformalarda iqlim dəyişmələri ilə mübarizədə və ekoloji siyasətdə liderliyini nümayiş etdirdi. Bu mötəbər tədbir planetimizin gələcəyini müzakirə etmək üçün dünyanın müxtəlif guşələrindən liderləri, alimləri və iqlim fəallarını bir araya gətirdi.

Türk dövlətlərinin birliyi həm regional sabitliyə, həm də qlobal miqyasda ədalətli dünya nizamının formalaşmasına yönəlib. Avropanın ikili standartları, türkofobiya və postkolonial siyasətlərin təsiri türk dövlətlərini prinsipial mövqelərini daha qətiyyətlə müdafiəyə sövq edir.

Türk dövlətləri BMT və digər qlobal təşkilatlarda birgə mövqe sərgiləyərək beynəlxalq münaqişələrin həllində ədalətli yanaşmanı dəstəkləyir. Türkiyənin sabiq vitse-prezidenti Fuat Oktay çıxışında Qəzza üçün humanitar yardımın təmin edilməsinin vacibliyini vurğuladı və Beynəlxalq Ədalət Məhkəməsinin qərarlarına riayət olunmasını tələb etdi. Türk dünyası, Fələstin, Suriya münaqişələrində ədalətli və hüquqa əsaslanan həll yollarını təşviq etməklə, beynəlxalq diplomatiyada yeni yanaşmalar ortaya qoyur. Bu amillər Qərbin geosiyasi maraqlara əsaslanan ikili standartlarına qarşı alternativ siyasi modelin formalaşdırılmasına xidmət edir. Türk dövlətləri həm regional müstəvidə, həm də qlobal miqyasda güc balansına təsir edəcək yeni siyasi prinsiplər irəli sürməkdədirlər. Gələcəkdə Macarıstanda keçiriləcək qeyri-rəsmi Türk Dövlətləri Sammiti inteqrasiya prosesini daha da sürətləndirəcək.

Türk dünyası milli maraqlarını ümumi həmrəylik çərçivəsində birləşdirərək qlobal səviyyədə çoxqütblü diplomatiyanın inkişafına mühüm töhfə verir. TDT və TÜRKPA-nın uğurlu fəaliyyəti Türk dövlətlərinin dünya siyasətində yeni və nümunəvi model yaratdığını göstərir. Bu model beynəlxalq münasibətlər sistemində balanslı və ədalətli yanaşmanın bərqərar olmasına töhfə verir.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**

Respublika .- 2025.- 20 fevral (№ 38).-